# GÜNAHSIZ MÜQƏSSİR – Cümhuriyyətimizin Dövlət Marşını yazan şəxsiyyət



Dünya dəyişir, zamanın hökmü ilə bağlı qapılar açılır. Unudulmuş tariximiz aydınlaşır. Bir zamanlar qadağalar, qaranlıqlar içərisində saxlanılmış keçmişin məhrumiyyət dolu hadisələri bu gün müstəqil respublikamızın şanlı tarixinə çevrilir. Məhz bu tarix bizi öyrədir, özümüzü daha da dərindən dərk etməyə səsləyir. Azərbaycan tarixini yaratmış onlarla böyük şəxsiyyəti minnətdarlıq hissi ilə yad edirik. Təəssüflə demək lazımdır ki, milli ictimai fikrimizin iftixarlı nümayəndələrinin heç də hamısını yad edə bilməmişik. Belə insanlardan biri, XX əsrin əvvəlləri və sovet hakimiyyətinin ilk illərində yaşamış, həyatını xalqının milli azadlığı uğrunda mübarizəyə qurban vermiş vətənpərvər şair, publisist və ədəbiyyatşünas alim Əliabbas Müznib Mütəllibzadədir.

Şairin yüz il öncə tarixin ibrətamizliyi barədə yazdığı misallar bu gün onun özünə nə qədər də aiddir:

*Cahanda hər kəsin rəhnümasıdır tarix,*
*Əsiri-zülməti-qəhrin ziyasıdır tarix,*
*Hüquqi səlb olunan millətin bu gün, məncə,*
*Hünərli, qüvvəli tək bi xudasıdır tarix.*

**1883-cü ildə Bakıda doğulub ədəbiyyatda Müznib təxəllüsü ilə tanınan müəllifin əsl adı və soyadı Əliabbas Mütəllibzadədir. Müznib də bir çox yazıçı və şair çağdaşları kimi ədəbiyyat və mətbuat aləminə 1905-ci ilin rus qiyamından sonra gəlmiş və iti qələmi, üsyankar ruhu, milliyyətçi və türkçü inancları ilə qısa zamanda ədəbi dairələrdə böyük maraq doğurmuşdur. O, ilk əvvəl mollaxanada təhsil alıb, bir müddət də rus-tatar (Azərbaycan) məktəbinə gedib. Fars və rus dillərinə, türk tarixinə dair geniş məlumatlarını şəxsi oxuma yolu ilə əldə edib və bu mövzularda dövrünün məlumatlı şəxsiyyətlərindən biri kimi tanınıb.**

İlk şeirlərini 1907-ci ildən başlayaraq "Təzə Həyat", "İttifaq", "Zənbur" kimi qəzet və jurnallarda nəşr etdirib. 1910-cu ildə "Hilal" adlı qəzet nəşrə hazırlayıb; həddindən artıq tənqidçi ruhu və ifşaçılığı ilə diqqəti çəkən mətbu orqanın ilk sayı hələ mətbəədə ikən müsadirə olunub. Buna səbəb Müznibin "Hökumət, ah bir insan yeyən qurd, nə pul qoyar, nə bir yurd" misraları ilə başlayan şeiri idi. Rəsmi dairələrdən icazəsiz nəşr etdiyi ikinci sayda isə Müznib milli gəncliyi öz haqqını tələb etməməsi baxımından günahlandıraraq belə yazırdı: "Namusu qatı, qarət etməklə qazanmaq olmaz, bəlkə, hüquqi-vətən yolunda ölməklə mümkündür. Görürsünüzmü, ata-babadan qalan torpağımız zalımın çoxluğundan bir taxta pul mənasına gəlmiş... Əlimizdən gedən ihtiyaratın istirdadına çalışmaqla sübut oluna bilər". "Hilal" 1911-ci ilin ilk aylarında bağlanır. Şairin yayınlamağa başladığı "Şihab-sağıb" dərgisi də eyni aqibətlə üzləşir. Müznib hökuməti ifşa istiqamətli yazılarına görə əvvəl qısa müddətə həbs olunur və günahlandırılır. Daha sonra isə çar hökuməti tərəfindən Sibirə sürgünə göndərilir.

Amma üsyankar ruhlu şair Sibirdə də yazmaqdan qalmır. Sürgündə qələmə aldığı şeirləri Bakıya göndərib nəşr etdirir. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə Müznib də əfv olunaraq vətənə qayıdır və yenidən mətbuat və nəşriyyat aləminə atılır. 1914-cü ildə böyük qardaşı Əbülfəz Mütəllibzadənin adına "Dirilik" adlı məcmuə qurur. "Müsavat" partiyasının lideri, Azərbaycan Parlamentinin ilk başçısı Məhəmməd Əmin Rəsulzadənin "Milli dirilik" adlı ardıcıl yazıları ilk dəfə bu jurnalın səhifələrində işıq üzü görür. Məmləkətdə türkçülük fikrinin yayılmasında Müznib və onun "Dirilik" dərgisi ətrafındakı ədəbi qüvvələr əhəmiyyətli rol oynayır. 1915-ci ildə səhifələrində rus imperatoru I Pyotrun türk-müsəlman düşmənçiliyi ilə dolu "Vəsiyyət"inin nəşrindən sonra yenidən təqiblərə məruz qalır, az sonra jurnal bağlanır. Ardınca "Türkün səsi" adlı bir qəzet çıxartmaq fikrinə düşsə də, rəsmi dairələrdən lazımi izni ala bilmir. 1913-1917-ci illəri arasında milli yayım səhnəsində fəal şəkildə çalışır. Şərq və Qərb ədəbiyyatından tərcümələr edir. Öz əsərlərindən və tərcümələrdən ibarət onlarla kitab buraxır.




Müznib rus imperiyasının süqutundan sonra ədəbi və siyasi sahələrdə daha geniş fəaliyyət göstərir. 1919-cu ildə Azərbaycan Cümhuriyyətinin Dövlət Marşını yazır. Respublikanın rəsmi nəşr orqanı "Azərbaycan" qəzetində türklüyün tarixi və məsələləri üzərində ardıcıl məqalələr yazır.

Sovet rejimi dövründə 1920-1926-cı illər arasında yenə mətbuatda çalışır. Amma burada ona hər zaman millətçilik sahəsində köhnə yazdıqları xatırladılır və nəhayət, erkən yaşda təqaüdə ayrılmağa məcbur edilir. Türkçü və milliyyətçi olduğu üçün sovet dövründə də, çar zamanındakı kimi təzyiq və sərt reaksiyalara məruz qalır.

**Həyatının 20 ilini mətbuata həsr etmiş Müznib 1926-cı ildə 44 yaşında mətbuatdan ayrılır; siyasətdən tam uzaqlaşır və ədəbiyyat araşdırmacılığı ilə məşğul olur. 1927-1937-ci illər arasında XIX-XX əsr Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərindən ibarət on kitab yayınlayır. Bütün bu əsərləri özü yığmış, onlara geniş ön söz, bioqrafi və şərhlər əlavə etmişdir.**

1937-ci ildə yenidən həbsə alınır, XX əsrin bir sıra tanınmış şəxsiyyətləri kimi, milliyyətçilik və pantürkizmdə suçlanaraq ölüm cəzasına məhkumlanır. Son vaxtlar ortaya çıxan sənədlərdə yorulmaz jurnalist, şair və ədəbiyyat mütəxəssisi Əliabbas Müznibin 27 avqust 1937-ci ildə güllələndiyi qeydi var. 1956-cı ildə dövlət tərəfindən günahsızlığı etiraf edilib, ölümündən sonra bəraət verilən Müznibin əsərləri hələ də tam toplanıb nəşr olunmamış, yaradıcılığı tədqiq edilməmişdir.

Vurğuladığımız kimi, Ə.Müznib tərcüməçiliklə də məşğul idi. 1910-cu ildə "Min bir gecə" nağıllarından çevirdiyi bir parçanı "Əlifleyla" adı ilə çapa hazırlamış, "Ürək yanğısı" və "Tikan kolu" əsərlərini oxucular maraqla qarşılamışlar. Uzun illər ərzində topladığı el aşıqlarının, xalq söz sənətkarlarının əsərlərini 1926-cı ildə "Aşıq Pəri və müasirləri" adlı kitabda toplamışdır.

"Müznib" imzası Əliabbas Mütəllib oğlu Əhmədovun ədəbi təxəllüsüdür. "Müznib" sözü ərəb dilində günahkar, müqəssir mənasındadır. Qəribə olsa da, bu imza ilə Əliabbas Mütəllibzadənin şəxsi həyatı arasında sıx bağlılıq var. Elə bil ki, hələ yaradıcılığının ilk çağlarında taleyin onun adına yazdığı cəza hökmünü qabaqcadan bilmiş, buna görə də özünə belə bir ədəbi təxəllüs seçmişdir.

Ə.Müznib həyatıboyu ictimai fikir və ideyalarına görə üç dəfə müxtəlif vaxtlarda cəzaya məhkum olunub. Birinci dəfə 1912-ci ildə çar hökuməti onu xalqı milli-azadlıq qiyamına çağıranlar sırasında Sibirə ömürlük sürgün etmişdir. İkinci dəfə 1914-cü ildə dini-fanatizmi tənqidinə görə Bakı ruhanilərindən şeyx Qəninin ölüm fitvasına məruz qalıb. Üçüncü ağır cəza hökmünə 1937-ci ildə tuş gəlib. Beləliklə, ədəbi-ictimai həyata "Müqəssir" imzası ilə atılmış Ə.Müznib ömrünü müqəssir kimi başa vurmuşdur.

Ə.Müznibin həyat tarixçəsi göstərir ki, onun ədəbi təxəllüsü ilə mənsub olduğu nəslin taleyi arasında da bir yaxınlıq var. Belə bir cəza və ittihama hələ XIX əsrin əvvəllərində onun ulu babası – Bakının sonuncu xanı Hüseynqulu xan da məhkum edilib. Nəslin qanlı tarixi 1806-cı ilin əvvəllərində çar generalı Sisianovun Bakını işğal etmək istədiyi zamandan başlanır. Bu hadisə sonralar Bakı əhalisi üçün böyük faciələrlə nəticələnir. Çarizmin işğalçı cəza dəstələri xalqı qılıncdan keçirir, Hüseynqulu xan vətənindən didərgin düşür. Ə.Müznib həmin qanlı hadisələri ulu babasına həsr etdiyi "Təəssürat" başlıqlı bir şeirində dərin hüznlə yad etmiş, şeirin üzərində "Ulu babamı xatırlama" sözlərini yazmışdır. Sovet hakimiyyətindən əvvəl qələmə aldığı bir sıra yazılarında çarizmin Azərbaycan xalqının başına gətirdiyi müsibətlərə diqqət çəkir. 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyətinin birillik yubileyi münasibətilə məqaləsində bu faciəli keçmişi – "Bir əsrdən ziyadə bir müddətin içində tökülən hesabsız qanların bahasına zalımların yədi-asibanəsindən əxz edilən..." bir gün kimi xatırlayırdı. Şəxsi arxivində saxlanılan, təxminən 1920-ci ilə aid qeydlərdən birində XIX əsrin əvvəllərində çarizmin Bakını işğalı hadisələrini xalq ədəbiyyatından aldığı bir şeir parçasında bu cür təsvir edirdi:

*Yürüdü qoşunu xanın iləri,*
*Görcək bunu ruslar çəkildi geri,*
*Düşmənlərdən təmizlədik şəhəri,*
*Bakı şəhri sevimli yurdumuzdur.*

Ə.Müznib sovet hakimiyyəti illərində qələmə aldığı tərcümeyi-halında vətənin və xalqın başına gətirilən qəddarlıqlar barədə yazırdı: "1813-cü ildə İran və Rusiya arasında bağlanmış "Gülüstan müahidənaməsi" mövzusunda Hüseynqulu xan Bakıdan çəkildikdə xanın əqvam və əqrəbasına rus qoşunları tərəfindən şiddətli cəzalar verilmişdir. Qətliam şəhərdə həftələrlə davam etdi. Azyaşlılar belə qılıncdan keçirildi. "Yeddi ev bir güvəcə möhtac oldu" zərbül-məsəli bu tarixi hadisənin şahidi idi".

Bu xatirələrin doğurduğu dəhşətli vahimə, hətta üstündən az qala yüz il keçdikdən sonra da atasının çar hökumət orqanlarına qarşı qəzəb və barışmazlıq hislərini soyuda bilmir. O zaman kiçik Əliabbasın da həyatında silinməz izlər buraxır. Atası onun çar üsul-idarəsinə məxsus yeni üsullu məktəbə getməsinə belə razılıq vermir. Ə.Müznib həmin hadisələrin tarixçəsini belə nəql edir: "O zaman atam tikilməkdə olan bir məktəbdə daşyonan işləyirdi. Mən bir iş üçün onun yanına getmişdim. Təsadüfən tikintiyə hamilik edən Hacı Zeynalabdin Tağıyev gəlib çıxır, məni görüb xoşlayır. Atama deyir:

– Kişi, oğlunu ver, uşkollaya oxudum.

Lakin atam Hacının bu fikrinə razı olmur.

– Mənə urusdan gələn xeyir lazım deyil, – deyə cavab verir".

Ata-babasının müstəmləkə əsarətinə qarşı barışmazlığı təkcə Əliabbasın deyil, Mütəllib kişinin digər uşaqlarının da həyatında öz

təsirini göstərir. Ə.Müznibin kiçik qardaşı, gələcəkdə görkəmli şair, nasir, publisist və türkoloq alim kimi tanınan Əmin Abid də öz həyatını Azərbaycan xalqının milli-azadlıq hərəkatına həsr edib. O da 1937-ci il qurbanlarından biridir.

Ə.Müznib təxminən otuz illik bir yaradıcılıq yolu keçib. Bu müddətdə yüzlərlə poetik əsərlər, publisist məqalələr yazır. Təxminən on adda qəzet və jurnala naşir və redaktor olur, tərcüməçilik sahəsində də uğur qazanır. Azərbaycan xalq ədəbiyyatının bir sıra görkəmli nümayəndələrinin ədəbi irsini ilk dəfə toplayıb oxuculara çatdırır, onlar haqqında bu gün belə əhəmiyyətini itirməmiş diqqətəlayiq tədqiqatlar yazır. Lakin nə zaman, nə işlə məşğulluğundan asılı olmayaraq, Ə.Müznib bütün fəaliyyətində özünü həmişə bir məqsədə – vətənin və xalqın milli azadlığı mübarizəsinə həsr edir. Məhz bu məqsəd yolunda da həyatını qurban verir.

Əliabbas Müznib Mütəllibzadənin həyat və mübarizə yolu sovet repressiya burulğanı sona çatandan sonra da qadağan idi, təbii ki, adı müsbət mənada çəkilmirdi. Yalnız siyasi bəraəti nəticəsində, 1970-ci illərin əvvəlində ədəbiyyatşünas alim, filologiya elmləri doktoru İslam Ağayevin Ə.Müznibin şəxsiyyəti və fəaliyyəti haqda tədqiqat xarakterli məqaləsi işıq üzü gördü. Filologiya elmləri doktoru Ağarəfi Zeynalzadə ədib və ictimai xadimin nəşr etdiyi mətbuat orqanları (daha çox "Hilal" qəzeti və "Şihabi-Saqib" jurnalı) ilə senzura münasibətləri fonunda çarizmə qarşı barışmaz mübarizəsi barədə apardığı elmi araşdırmalarının nəticələrini çap etdirdi. Bundan sonra Ə.Müznibin şəxsiyyəti diqqət mərkəzində olmuş, akademik Ziya Bünyadov, filologiya elmləri doktoru Cəlal Qasımov və b. onun haqqında repressiya qurbanı kimi bəhs etmişlər.

Ə.Müznib yaradıcılığında çarizmlə, zülm və ədalətçiliklə barışmazlıq duyğusunun daha çox zəmanədən şikayət və zəhmətkeşlərin acınacaqlı vəziyyətlərinin poetik təsviri yolu ilə üzə çıxdığını qeyd edən İslam Ağayev satirada həmin vəziyyətin kəskin ifşaçılıq tərzinə uyğunluğunu göstərir. Qeyd edək ki, Ə.Müznib satirasında "Molla Nəsrəddin" ədəbi məktəbinin, Sabir ənənələrinin təsirindən başqa, onun öz romantizmindən və islami dünyagörüşündən irəli gələn bir lirizm və həzinlik də boy göstərir. Ədibin hətta "Əkinçi", "Dilənçi", "Fəhlə" və s. kimi mübariz və barışmazlıq duyğusu ilə aşılanmış şeirlərində də bu ruh aydın duyulmaqdadır. Azərbaycan Cümhuriyyətinin qurulmasında mübariz ədibin qələminin dəyəri, sovet hakimiyyəti illərindəki fəaliyyəti, habelə hər iki – çarizm və sosializm imperiyası tərəfindən repressiyaya məruz qalması da monoqrafiyada öz əksini layiqincə tapıb.

Görkəmli şair, nasir, publisist və ədəbiyyatşünas, Stalin repressiyaları qurbanı Əliabbas Müznib (1883-1938) özündən sonra böyük bir irs qoyub getmişdir. Onun ədəbiyyatımız, ədəbiyyat tariximiz qarşısındakı xidmətləri son illərdə, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra hərtərəfli tədqiq edilir, əsərləri üzə çıxarılaraq nəşr edilir. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Müznibin zəngin ədəbi irsi, XX əsrin əvvəllərində çapdan çıxmış kitabları (tədqiqatçıların bildirdiyinə görə, ötən əsrin əvvəllərində onun altmışa qədər kitabçası nəşr edilib), müxtəlif mənbələrə əsasən tərtib etdiyi topluları saxlanmaqdadır. Klassik ədəbiyyatımızın gözəl bilicisi, tariximizin, ədəbiyyat tariximizin araşdırıcısının tərtib etdiyi bəzi toplular əski dövrlərdə əlyazma şəklində yazılıb yayılan cüng, məcmuə və bəzən də təzkirələri xatırladır.

**Yazıçının arxivində öz əli ilə yazdığı iki hissəli "Bakı" kitabı şəhərin tarixinə dair müxtəlif mənbələrdən toplanmış məlumatlardan ibarətdir. Son dövrlərdə müəyyənləşib ki, 1928-ci ildə "Azərnəşr"də çap edilmiş "Natəvan Xurşudbanu" kitabının müəllifi Ə.Müznibdir (redaktor və ön söz müəllifi Hənəfi Zeynallıdır).**

Bu kitabı və onun həcmcə daha böyük ikinci nəşrinin əlyazmasını müəyyən mənada cüng, antologiya kimi nəzərdən keçirmək mümkündür. Burada Natəvanın şeirləri, həyat və yaradıcılığı, ədəbi aləmdə nüfuzu, əsərlərinə yazılan nəzirələr barədə məlumatlar toplanıb (1934-cü ildə tamamlanmış bu əlyazma kitab halında nəşr olunub). Toplu barədə dediklərimizə onu da əlavə etmək istərdik ki, müəllifin araşdırma xarakterli qeydləri ona həm də bir tədqiqat əsəri kimi baxmağa imkan verir.

Ə.Müznibin zəngin irsi və dərin psixologizm, humanizm və beynəlmiləlçiliklə aşılanmış əsərləri Azərbaycan ədəbiyyatının zənginləşməsində mühüm rol oynayıb. Belə bir qiymətli irsi öyrənmək, onu nəsillərə çatdırmaq böyük insanpərvər və vətənpərvər şairimizə ən dəyərli mənəvi abidədir. O, bu gün dillərdə, ürəklərdə, beyinlərdə sayrışan şeirləri ilə, səhnələrdəki mənzum əsərləri ilə yaşayır. Müznib həyatı bitəcəksiz bir ömürdür.

**Aynurə Əliyeva**
F.Köçərli adına Respublika Uşaq Kitabxanasının metodisti

